Araşdırma hesabatı

ABB
Azərbaycan Beynəlxalq Bankı

# Səhiyyə Sektorunda Mövcud Vəziyyət və İnkişaf Tendensiyaları

Dekabr 2025

# Xülasə

**Qlobal səhiyyə sistemi** hazırda artan xroniki və yoluxucu xəstəlik yükü, demoqrafik yaşlanma və institusional resursların məhdudluğu fonunda ciddi çağırışlarla üzləşir. Ürək-damar xəstəlikləri, xərçəng və diabet kimi qeyri-yoluxucu xəstəliklərin genişlənməsi, peyvənd təminatındakı fasilələr və antimikrob müqavimətinin yüksəlməsi səhiyyə sistemlərinin dayanıqlılığını zəiflədir. 2050-ci ilə qədər 60 yaşdan yuxarı əhalinin sayının iki milyardı keçəcəyi gözlənilir ki, bu da uzunmüddətli tibbi xidmətlərə və inkişaf etmiş diaqnostik imkanlara tələbatı kəskin artıracaq. Bu kontekstdə rəqəmsal səhiyyə və tibbi texnologiyaların sürətli inkişafı xidmətlərin təşkilində struktur transformasiyanı zəruri edir.

**Azərbaycan** üzrə demoqrafik göstəricilər sabit artım nümayiş etdirir: əhalinin sayı 2025-ci ildə 10.22 milyona çatmış, ömür uzunluğu əhəmiyyətli dərəcədə artmışdır. Səhiyyənin maliyyələşməsində artım, İcbari Tibbi Sığortanın tətbiqi və rəqəmsal səhiyyə təşəbbüsləri sektorun institusional tutumunu gücləndirir. İnfrastruktur göstəricilərində müəyyən azalmalar olsa da, həkimlərin ümumi sayında artım qeydə alınmış və bir sıra xəstəliklər üzrə göstəricilər azalmışdır. Ölüm səbəblərində qan-dövranı sistemi xəstəliklərinin dominantlığı profilaktik xidmətlərin vacibliyini ön plana çıxarır. Son illərdə tətbiq edilən “Vahid Sağlamlıq” yanaşması, rəqəmsal səhiyyə strategiyası və Elektron Resept kimi islahatlar sektorun keyfiyyət və idarəetmə səmərəliliyini artırmağa yönəlmişdir.

# Mündəricat


## Qlobal baxış

- Qlobal səhiyyə sektorunda əsas çağırışlar və tendensiyalar
- Qlobal dərman bazarı və tibbi texnologiya sektoru
- Qlobal səhiyyə xərcləri
- Doğulanda gözlənilən ömür uzunluğu

## Azərbaycan

- Demoqrafik göstəricilər
- Doğulanda gözlənilən ömür uzunluğu və qonşu ölkələr ilə müqayisə
- Dövlət büdcəsindən səhiyyə sektoruna ayrılan xərclər
- Səhiyyənin əsas göstəriciləri və qonşu ölkələr ilə müqayisə
- Xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi
- Xəstəliklərdən ölüm səbəbləri
- Ana-uşaq ölümü
- Müalicə-proflatika xidməti
- Stomotoloji yardım müəssəsisələri
- Səhiyyə və sosial xidmətlər sektorunda məşğul əhali
- İcbari Tibbi Sığortadan faydalanan vətəndaşlar
- Səhiyyə sektorunda islahat və tədbirlər

# Qlobal baxış



# Qlobal səhiyyə sektorunda əsas çağırışlar

| | |
|---|---|
| **Sağlamlıq göstəricilərində yavaşlama və əsas göstəricilərin geriləməsi** | • Orta ömür və sağlam ömür uzunluğunun azalması<br>• Ümumdünya Səhiyyə Təşkilatının “Ümumi Sağlamlıq Təminatı” (UHC) hədəfinə çatmasında geriləmə |
| **Qeyri-yoluxucu xəstəliklərin (QYX) və piylənmənin artması, qida balansının pozulması** | • Erkən ölümün əsas səbəbləri: ürək-damar xəstəlikləri, xərçəng, diabet<br>• Artan piylənmə və aşağı çəki problemləri<br>• Xroniki xəstəliklərin müalicəsini məhdudlaşdıran əsas səbəb: işçi qüvvəsi çatışmazlığı |
| **Yoluxucu xəstəliklərin yenidən artması, antimikrob müqaviməti (AMR), fövqəladə hallara zəif hazırlıq** | • Vərəm xəstəliyinin sürətli artımı: 2024-cü ildə təxminən 8.3 milyon vərəm diaqnozu (pandemiyadan sonrakı ən yüksək göstərici)<br>• Malyariyanın geniş yayılması və peyvənd çatışmazlığı<br>• Antimikrob müqavimətinin artması<br>• Pandemiya risklərinə zəif hazırlıq |
| **Səhiyyə sistemində xərclərin artması, işçi qüvvəsi çatışmazlığı və maliyyə məhdudiyyətləri** | • Sürətlə artan səhiyyə xərcləri (2025-ci il üçün proqnoz: 10.4%)<br>• Maliyyə boşluqları və resurs çatışmazlığı<br>• İşçi çatışmazlığı: 2030-cu ilə qədər ~11 milyon |
| **İqlim dəyişikliyi, ətraf mühit amilləri və bərabərsizliyin artması** | • İqlim dəyişikliyinin səhiyyəyə təsirləri: istilik dalğaları, daşqınlar, quraqlıq, hava çirkliliyi, yoluxucu xəstəliklərinin yayılması<br>• Sağlamlıq nəticələrinə təsir edən ətraf mühit və kommersiya amilləri: qida sistemləri, şəhər planlaması, hava keyfiyyəti |
| **Texnologiya və kibertəhlükəsizlik məsələləri** | • Texnologiyanın sürətli inkişafı, e-səhiyyə və IoT* cihazlarının artımı ilə səhiyyədə kibertəhlükəsizlik riskinin də artması |

Mənbə: Ümumdünya Səhiyyə Təşkilatı

IoT*-Internet of Things

# Qlobal səhiyyə sektorunun əsas tendensiyaları

## Yaşlanma və xəstəliklər səbəbindən səhiyyə xidmətlərinə olan tələbin artması

Qlobal olaraq, **60 yaşdan yuxarı** şəxslərin sayı **2050-ci ilə qədər 2 milyarddan çox** olacaq. OECD ölkələrində **2021-ci ildə** əhalinin **18%-i 65 yaşdan yuxarı** idi, **2050-ci ilə** qədər isə bu göstəricinin **27%-ə** çatacağı proqnozlaşdırılır. 2021-ci illə müqayisədə OECD ölkələrində **80 və yuxarı** yaşlı əhalinin payı **2050-ci ilə qədər iki dəfə artaraq 4.8%-dən 9.8%-ə yüksələcək.** Bu isə çoxsaylı xəstəliklər və uzunmüddətli xidmətlər tələbatını artırır. 2030-cu ilə qədər qlobal səhiyyə xidmətlərinə tələbin yaşlanan əhali səbəbindən **30% artacağı** gözlənilir.

**Gözlənilən ömür uzunluğu** 2019-cu ildəki **72.6-dan** 2020 və 2021-ci illərdə **pandemiyanın pik nöqtəsində 70.9-a düşərək 2024-cü ildə 73.3 yaşa çatıb**. Buna baxmayaraq sağlam ömür uzunluğu azdır – yəni insanlar artan müddətdə sağlam həyat sürmürlər.

ÜST*-ün 2024-cü ildə nəşr olunmuş ən son "Qlobal Səhiyyə Xərcləri" hesabatına əsasən 2022-ci ildə qlobal səhiyyə xərcləri **9.8 trilyon ABŞ dolları** olmuşdur ki, bu da **qlobal ÜDM-in 9.9%-i** təşkil edib. OECD ölkələri 2024-cü ildə səhiyyə sektoruna **ÜDM-in təxminən 9.3%-ni** xərcləyib ki, bu da pandemiya dövrünün pik səviyyəsindən aşağı olsa da, 2020-ci ildən əvvəlki dövrdən daha yüksəkdir.

## Rəqəmsallaşma və texnoloji innovasiyalar

Grand View Research-in məlumatına əsasən, Qlobal rəqəmsal səhiyyə bazarının həcmi **2024-cü ildə 288.55 milyard ABŞ dolları** qiymətləndirilmişdir.

Qlobal **geyilə bilən tibbi cihazlar bazarının** həcmi **2024-cü ildə 42.74 milyard ABŞ dolları** qiymətləndirilmişdir və **2025–2030-cu illər ərzində orta illik artım tempi 25.53% olmaqla 2030-cu ildə 168.29 milyard ABŞ dollarına** çatacağı proqnozlaşdırılır.

Qlobal səhiyyədə **IoT cihazları** bazarının həcmi isə **2023-cü ildə 44.21 milyard ABŞ dolları** qiymətləndirilmişdir. 2024–2030-cu illər ərzində bazarın **orta illik artım tempi 21.2% olmaqla 2030-cu ildə 169.99 milyard ABŞ dollarına** çatacağı proqnozlaşdırılır. Bazarın böyüməsinə əsasən xəstələri izləmək üçün smartfonlar, ağıllı cihazlar və geyilə bilən texnologiyalardan istifadənin artmı təsir göstərir.

ÜST - Ümumdünya Səhiyyə Təşkilatı

# Qlobal dərman bazarı və tibbi texnologiya sektoru rekord sürətlə böyüyür.

**Xroniki və yoluxucu xəstəliklərin** geniş yayılması səhiyyə xərclərinin əsas hərəkətverici qüvvəsidir. Dünya üzrə **ürək-damar xəstəlikləri, xərçəng, diabet və tənəffüs yolları xəstəlikləri** milyonlarla insanın həyatına təsir göstərir və hər il böyük iqtisadi itkilərə səbəb olur. Bu reallıq dərman və tibbi texnologiyalara tələbi sürətlə artırır.

**Qlobal dərman bazarının həcmi 2024-cü ildə** təxminən **1 646 milyard ABŞ dolları** olaraq qiymətləndirilmişdir. Bu bazarın **2030-cu ilə qədər 2 350 milyard ABŞ dolları** səviyyəsinə çatacağı və **orta illik artım tempinin 6.1%** olacağı proqnozlaşdırılır.




**Qlobal rəqəmsal səhiyyə bazarının** həcmi **2024-cü ildə 289 milyard ABŞ dolları** qiymətləndirilmişdir və **orta illik artım tempi 22.2%** olmaqla **2030-cu ildə 946 milyard ABŞ dollarına** çatacağı gözlənilir.




**Qlobal tibbi cihazlar bazarının həcmi 2024-cü ildə 542.21 milyard ABŞ dolları** olaraq qiymətləndirilib. Bu bazarın **2025-ci ildə 572.31 milyard ABŞ dollarından 2032-ci ildə 886.68 milyard ABŞ dollarına** qədər yüksələcəyi və proqnoz dövründə **orta illik artım tempinin 6.5%** təşkil edəcəyi gözlənilir.

2024-cü ildə qlobal tibbi cihazlar bazarına **38.17%** payla **Şimali Amerika** liderlik edib. Bu üstünlük güclü səhiyyə infrastrukturuna, əlverişli sığorta və ödəniş mexanizmlərinə, həmçinin ABŞ və Kanadada qabaqcıl texnologiyaların yüksək tətbiqinə əsaslanır.

**In-vitro diaqnostika (IVD) segmenti** 2024-cü ildə tibbi cihazlar bazarında **13.6%** payla üstünlük təşkil edib. Bu, dünya üzrə aparılan **klinik diaqnostik testlərin çoxluğu və yoluxucu, həmçinin xroniki xəstəliklərin artması** ilə bağlıdır. Bu kateqoriyada davam edən innovasiyalar və yeni məhsul buraxılışları da onun lider mövqeyini gücləndirib.

Mənbə: Grand View Research, Fortune Business Insights

# Qlobal səhiyyə xərcləri

**Ümumdünya Səhiyyə Təşkilatının ən son hesabatına əsasən 62.1%-i daxili dövlət xərcləri, qalan hissəsi isə özəl xərclərdən ibarət olmaqla, 2022-ci ildə qlobal səhiyyəyə xərcləri 9.8 trilyon ABŞ dolları təşkil etmişdir ki, bu da qlobal ÜDM-in 9.9%-i təşkil edib.**

**2024-cü ildə ÜDM-ə nisbətdə səhiyyə xərclərinin ən yüksək olduğu ölkə 17.2% olmaqla ABŞ-dır.**




2024-cü ildə ABŞ-da **milli səhiyyə xərcləri 5.3 trilyon ABŞ dolları** olub və ilk dəfə **5 trilyon ABŞ dolları həddini keçib.** Bu, əvvəlki ilə nisbətən **8.2% artım** deməkdir və **ÜDM-in artım tempini (5.3%) üstələyir.**

“Centers for Medicare & Medicaid Services”-in proqnozuna əsasən ABŞ-də səhiyyə xərcləri **2024–2033-cü illərdə** orta hesabla hər il **5.8% artacaq** və ÜDM-in artım tempini (orta hesabla 4.3%) üstələyəcək. Nəticədə, **səhiyyə xərclərinin ÜDM-dəki payı 2023-cü ildəki 17.6%-dən 2033-cü ildə 20.3%-ə yüksələcək.**

**Adambaşına düşən səhiyyə xərclərinə görə 13 432 dollar ilə ABŞ ilk sırada yer alır.**

2023-cü ildə ABŞ-da **adambaşına səhiyyə xərcləri 13 432 ABŞ dolları** təşkil edib ki, bu da digər yüksək gəlirli ölkələrin hər birindən **3 700 ABŞ dolları çoxdur.** Müqayisə olunan ölkələrdə adambaşına səhiyyə xərclərinin orta **məbləği (7 393 ABŞ dolları)** ABŞ-da adambaşına xərclənən məbləğin təxminən yarısı qədərdir.




Mənbə: Health System Tracker

# 2025-ci ildə 1990-cı il ilə müqayisədə insanın doğulanda gözlənilən ömür uzunluğu 15% artıb.

**Doğulanda gözlənilən ömür uzunluğu 2025-ci ildə dünya üzrə 73.5 il olub.**




## 2025-ci il əvvəlki illər ilə müqayisədə

| | 2025-ci il üzrə doğulanda gözlənilən ömür uzunluğu | Fərq | | | |
|---|---|---|---|---|---|
| | | 1990-cı il | 2000-ci il | 2010-cu il | 2020-ci il |
| Qlobal | 73.5 | 15% | 2% | 5% | 2% |
| Avrozona | 71.2 | -11% | 1% | -5% | -1% |
| Asiya | 75 | 17% | 2% | 5% | 2% |
| ABŞ | 79.6 | 6% | 1% | 1% | 3% |

## Ən yüksək ömür uzunluğuna malik 5 ölkə


Honq Konq 85.6 il


Yaponiya 84.8 il


Cənubi Koreya 84.4 il


Sinqapur 83.9 il


Makao 83.2 il

Mənbə: BMT, World Population Review

# Qlobal xülasə

Qlobal səhiyyə sistemi bu gün artan xəstəlik yükü və sürətlənən demoqrafik dəyişikliklər fonunda mürəkkəb çağırışlarla üzləşir. Xroniki xəstəliklərin – xüsusilə ürək-damar xəstəlikləri, xərçəng və diabetin – genişlənməsi, eləcə də yoluxucu xəstəliklərin, o cümlədən vərəm hallarının artması səhiyyə xidmətlərinə olan təzyiqi yüksəldir. Səhiyyə sektorunda işçi qüvvəsi çatışmazlığı, maliyyə məhdudiyyətləri, peyvənd təminatındakı fasilələr və antimikrob müqavimətinin artması isə sektorun dayanıqlığını zəiflədən əsas amillərdir. Pandemiyadan sonra bir çox ölkədə fövqəladə hadisələrə hazırlığın kifayət qədər olmaması da qlobal səhiyyə təhlükəsizliyinə dair narahatlıqları gücləndirir.

Əhalinin sürətlə yaşlanması səhiyyə xidmətlərinə tələbatı daha da artıran mühüm tendensiyadır. Proqnozlara görə, 2050-ci ilə qədər 60 yaşdan yuxarı insanların sayının iki milyardı keçməsi uzunmüddətli səhiyyə xidmətlərinə, xroniki xəstəliklərin idarə olunmasına və daha inkişaf etmiş diaqnostik imkanlara ehtiyacı artıracaq.

Bu fonda texnoloji inkişaf səhiyyə sistemlərinin yenidən qurulmasını zəruri edir. Rəqəmsal səhiyyə həlləri, geyilə bilən tibbi cihazlar və IoT texnologiyaları xidmətlərin göstərilmə modelini dəyişərək monitorinq və diaqnostika imkanlarını genişləndirir. Dərman və tibbi cihaz bazarlarının böyüməsi isə artan xəstəlik yükündən yaranan tələbatla bilavasitə əlaqəlidir.

Beləliklə, qlobal səhiyyə artan xəstəlik yükü, yaşlanan əhali və dəyişən texnoloji mühit şəraitində struktur islahatlarına ehtiyac duyur. Sistemlərin dayanıqlılığının gücləndirilməsi, innovativ texnologiyalara adaptasiya və resursların səmərəli idarə edilməsi əsas prioritetlər kimi ön plana çıxır.

# Azərbaycanda səhiyyə

# Son 25 ildə Azərbaycan əhalinin sayı orta illik 1% artaraq 2025-ci ildə 10.22 milyon nəfərə çatıb.

## 2025-ci ildə 2001-ci il ilə müqayisədə əhalinin sayı 26% artıb.




## Yaş qrupuna görə əhalinin bölünməsi




Mənbə: A.R Statistika Komitəsi, BMT

# 2024-cü ildə doğulanda gözlənilən ömür uzunluğu 2000-ci il ilə müqayisədə 7% artıb.

**2024-cü ildə doğulanda gözlənilən ömür uzunluğu qadınlarda 79, kişilərdə 74 yaş olub.**

## Qadınlar

### 2024-cü il il əvvəlki illər ilə müqayisədə

| 2000-ci il | 2010-cu il | 2020-ci il |
|---|---|---|
| 5.5% | 3.9% | 4.1% |







## Kişilər

### 2024-cü il il əvvəlki illər ilə müqayisədə

| 2000-ci il | 2010-cu il | 2020-ci il |
|---|---|---|
| 8.6% | 5.1% | 7.2% |

Mənbə: A.R Statistika Komitəsi

# Azərbaycan qonşu ölkələr ilə müqayisədə

**Seçilmiş qonşu ölkələr arasında Türkiyə 77.4 il olmaqla doğulanda gözlənilən ömür uzunluğu ən çox olan ölkədir.**




## 2025-ci il əvvəlki illər ilə müqayisədə

| | 2025-ci il üzrə doğulanda gözlənilən ömür uzunluğu | Fərq | | | |
|---|---|---|---|---|---|
| | | 1990-cı il | 2000-ci il | 2010-cu il | 2020-ci il |
| Azərbaycan | 74.7 | 5% | 1% | 2% | 3% |
| Türkiyə | 77.4 | 14% | 1% | 3% | 1% |
| Gürcüstan | 74.8 | 9% | 2% | 4% | 2% |
| Qazaxıstan | 74.6 | 14% | 2% | 9% | 5% |

Mənbə: Ölkələrin rəsmi statistika saytları

# 2025-ci ilin dövlət büdcəsinin layihəsində səhiyyə xərcləri üçün 1 999.4 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2024-cü il ilə müqayisədə 7.1% çoxdur. Səhiyyə xərcləri ÜDM-in 1.4%-i təşkil edir.

Ölkə ərazisində **icbari tibbi sığortanın tətbiqi və COVID-19 pandemiyası ilə mübarizə və profilaktik tədbirlərin həyata keçirilməsi** səbəbindən **2020-ci ildə "Səhiyyə sahəsində digər xidmətlər"** bölməsinin payı səhiyyə xərcləri təsnifatının **90.9%-i təşkil edib.**

2025-ci il dövlət büdcəsi layihəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi üçün nəzərdə tutulan **1 410.4 milyon manat vəsaitin təxminən 90%-ni dövlətin əhalinin icbari tibbi sığortalanmasına aid öhdəlikləri** əhatə edir. Bu göstərici 2024-cü illə müqayisədə **3.1% çoxdur**. **Xərcin artmasının əsas səbəbi 2025-ci ildə əhalinin sayında proqnozlaşdırılan artım və 2024-cü ilin sonuna gözlənilən 2.7% istehlak qiyməti indeksi** ilə bağlı olub.

2024-cü ildən etibarən 2029-cu ilədək dövlət büdcəsindən səhiyyə xərclərinə ayrılan vəsaitinin orta illik artımı **5%** təşkil edəcək.




Mənbə: A.R Maliyyə Nazirliyi

# Səhiyyənin əsas göstəriciləri son 25 ildə

**Son 25 ildə bütün ixtisaslardan olan həkimlərin sayında orta illik 1% artım, orta tibb işçilərinin sayında isə orta illik 0.2% azalma olub.**




**Son 25 ildə xəstəxana müəssisələrinin sayında orta illik 3% azalma müşahidə olunub.**




**Son 25 ildə xəstəxana çarpayılarının sayında orta illik 2.3% azalma müşahidə olunub.**




**2007-ci ildən bəri ambulator-poliklinika müəssisələrə müraciətlərin sayında orta illik 1.2% azalma müşahidə olunub.**




Mənbə: A.R Statistika Komitəsi

CAGR*- orta illik artım

# 2025-ci ildə həkimlərin sayı 2020-ci il ilə müqayisədə 10.7% artıb.

## 2025-ci ildə həkimlərin ixtisaslar üzrə bölgüsündə ən böyük hissəni 25.3% olmaqla terapevtlər təşkil edir.




2025-ci il ümumi həkim sayı: **35 233 nəfər**

## 2025-ci il 2020-ci il ilə müqayisədə

| | |
|---|---|
| Terapevtlər | **14.2%** |
| Stomatoloq və diş həkimləri | **20.2%** |
| Nevropatoloqlar | **2.3%** |
| Cərrahlar | **10.5%** |
| Pediatrlar | **3.2%** |
| Ginekoloqlar | **10.2%** |
| Şüa diaqnostikası üzrə | **9.9%** |
| Oftalmoloqlar | **6.6%** |
| Digər | **-18.4 %** |

## 2020-ci ildə həkimlərin ixtisaslar üzrə bölgüsü




Mənbə: A.R Statistika Komitəsi

# Səhiyyənin əsas göstəriciləri qonşu ölkələr ilə müqayisədə

## Hər 10 000 nəfərə düşən həkimlərin sayı üzrə müqayisə




## Hər 10 000 nəfərə düşən tibb bacılarının sayı üzrə müqayisə




## Hər 10 000 nəfərə düşən xəstəxana yataqlarının sayı üzrə müqayisə




Mənbə: Ölkələrin rəsmi statistika saytları

# Son 24 ildə xəstə əhalinin sayı orta illik 3.3% artıb.

**2024-cü ildə xəstə əhalinin sayı 2.87 milyon təşkil edib ki, bu 24 il əvvəl ilə müqayisədə 113% çoxdur.**




**Əhali arasında tənəffüs orqanlarının xəstəlikləri daha çox yayılıb. Bu xəstəlik ən çox 0-17 yaş qrupu arasında müşahidə olunur.**




Mənbə: A.R Statistika Komitəsi

# Xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi

## Hər 100 000 nəfər əhali arasında bədxassəli şişlərlə xəstələnən qeydiyyatda olan şəxslərin sayında 2007-ci ildən bəri orta illik 5.7% artım müşahidə olunub.




**İlk dəfə qoyulmuş diaqnozla qeydə alınmış xəstələrin sayının qeydiyyatda olan şəxslərin sayına nisbəti**




**2024-cü il** **2007-ci il**

**Qeydə alınmış şəxslərin sayı üzrə 2024-cü il digər illər ilə müqayisədə**




**2014-cü il** **2007-ci il**

## Hər 100 000 nəfər əhali arasında vərəmlə xəstələnən qeydiyyatda olan şəxslərin sayında sayında 2007-ci ildən bəri orta illik 2.1% azalma müşahidə olunub.




**İlk dəfə qoyulmuş diaqnozla qeydə alınmış xəstələrin sayının qeydiyyatda olan şəxslərin sayına nisbəti**




**2024-cü il** **2007-ci il**

**Qeydə alınmış şəxslərin sayı üzrə 2024-cü il digər illər ilə müqayisədə**




**2014-cü il** **2007-ci il**

Mənbə: A.R Statistika Komitəsi

# Xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi

**Hər 100 000 nəfər əhali arasında psixi xəstəliklərlə xəstələnən qeydiyyatda olan şəxslərin sayında sayında 2007-ci ildən bəri orta illik 1.1% azalma müşahidə olunub.**




**İlk dəfə qoyulmuş diaqnozla qeydə alınmış xəstələrin sayının qeydiyyatda olan şəxslərin sayına nisbəti**




**Qeydə alınmış şəxslərin sayı üzrə 2024-cü il digər illər ilə müqayisədə**




**Hər 100 000 nəfər əhali arasında şəkərli diabetlə xəstələnən qeydiyyatda olan şəxslərin sayında sayında 2007-ci ildən bəri orta illik 9.5% azalma müşahidə olunub.**




**İlk dəfə qoyulmuş diaqnozla qeydə alınmış xəstələrin sayının qeydiyyatda olan şəxslərin sayına nisbəti**




**Qeydə alınmış şəxslərin sayı üzrə 2024-cü il digər illər ilə müqayisədə**




Mənbə: A.R Statistika Komitəsi

# Xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi

**Hər 100 000 nəfər əhali arasında ilk dəfə diaqnozu müəyyən olunmuş alkoqolizm ilə xəstələnən insanların sayında 2007-ci ildən bəri orta illik 2.1% azalma olub.**




İlk dəfə diaqnozu müəyyən olunmuş xəstələrin sayına görə 2024-cü il digər illər ilə müqayisədə




**Hər 100 000 nəfər əhali arasında ilk dəfə narkomaniya və toksikomaniya ilə xəstələnən insanların sayında 2007-ci ildən bəri orta illik 4.9% artım olub.**




İlk dəfə diaqnozu müəyyən olunmuş xəstələrin sayına görə 2024-cü il digər illər ilə müqayisədə




Mənbə: A.R Statistika Komitəsi

# Azərbaycanda xəstəlikdən ölüm səbəblərinin 56.5%-i qan dövranı sisteminin xəstəlikləri təşkil edir.

**Son 20 il ərzində bütün xəstəliklər səbəbindən ölənlərin sayında ən yüksək göstərici 76 878 nəfər olmaqla 2021-ci ildə qeydə alınıb.**




**2024-cü ildə əhalinin hər 100 000 nəfərinin 577 nəfəri müxtəlif xəstəliklər səbəbindən dünyasını dəyişib.**

2024-cü il üzrə xəstəlikdən ölüm səbəblərinin bölgüsü




Əhali arasında ölümün əsas səbəbləri (əhalinin hər 100 000 nəfərinə)




Mənbə: A.R Statistika Komitəsi

# 2024-cü ildə 2005-ci il ilə müqayisədə baş vermiş ana və 1 yaşa qədər olan uşaq ölümlərinin sayı müvafiq olaraq 29% və 10% aşağı düşüb.

## 1 yaşa qədər ölən uşaqların arasında 50%-dən çox olmaqla oğlan uşaqları çoxluq təşkil edir.




CAGR: -0.6%

**2024-cü il əvvəlki illər ilə müqayisədə**

| 2014-cü il | 2023-cü il |
|---|---|
| -14.2% | -30.4% |

## Son 20 ildə ana ölümünün sayında orta illik 1.8% azalma müşahidə olunub.




**2024-cü il əvvəlki illər ilə müqayisədə**

| 2005-ci il | 2014-cü il | 2023-cü il |
|---|---|---|
| -29.3% | 16% | -12.1% |

Mənbə: A.R Statistika Komitəsi

# 2024-cü ildə müalicə-proflatika xidməti göstərilən əhalinin 78%-i 18 yaşa qədər olan uşaqlar olub.

## Müayinə olunanların sayı

### 2014-cü il

Cəmi: **3 636.9 min nəfər**




**Müayinə olunanların müayinə olunmalı əhalinin ümumi sayına nisbəti**

| | |
|---|---|
| 0-13 yaşlı | 96.9% |
| 14-17 yaşlı | 96.5% |
| 18-29 yaşlı gənclər | 92.2% |
| 30 və yuxarı yaşlı şəxslər | 94.4% |

### 2019-cu il

Cəmi: **3 850.8 min nəfər**




**Müayinə olunanların müayinə olunmalı əhalinin ümumi sayına nisbəti**

| | |
|---|---|
| 0-13 yaşlı | 95.1% |
| 14-17 yaşlı | 95.0% |
| 18-29 yaşlı gənclər | 92.0% |
| 30 və yuxarı yaşlı şəxslər | 92.1% |

### 2024-cü il

Cəmi: **3 095.2 min nəfər**




**Müayinə olunanların müayinə olunmalı əhalinin ümumi sayına nisbəti**

| | |
|---|---|
| 0-13 yaşlı | 89.3% |
| 14-17 yaşlı | 87.5% |
| 18-29 yaşlı gənclər | 83.0% |
| 30 və yuxarı yaşlı şəxslər | 94.0% |

Mənbə: A.R Statistika Komitəsi

# Stomotoloji yardım müəssəsisələri

**2024-cü ildə 2007-ci il ilə müqayisədə stomatoloji poliklinikaların sayında 10% azalma müşahidə olunub.**




**2024-cü il əvvəlki illər ilə müqayisədə**




**2024-cü ildə 2007-ci il ilə müqayisədə stomatoloji şöbəyə malik olan müəssisələrin sayında 20% artım müşahidə olunub.**




**2024-cü il əvvəlki illər ilə müqayisədə**




Mənbə: A.R Statistika Komitəsi

# İqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin 4%-i səhiyyə və sosial xidmətlər sektorunun payına düşür.

**2024-cü ildə səhiyyə və sosial xidmətlər sahəsində məşğul əhalinin sayında 2011-ci il ilə müqayisədə 15.2% artım müşahidə olunub.**




**Səhiyyə və sosial xidmətlər üzrə muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı dövlət sektorunda üstünlük təşkil edir.**




**Səhiyyə və sosial xidmətlər iqtisadi fəaliyyət növü üzrə 1 saata düşən əmək xərcləri 2024-cü ildə 2016-ci il ilə müqayisədə 4 dəfə artıb.**




Mənbə: A.R Statistika Komitəsi

# 2021-ci il ilə müqayisədə 2024-cü ildə icbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisələri üzrə tibbi xidmətlərdən faydalanan vətəndaşların sayında 29% artım müşahidə olunub.

## Son 3 ildə icbari tibbi sığortanın (İTS) tətbiq olunduğu tibb müəssisələri üzrə tibbi xidmətlərdən faydalanan vətəndaşların 33%-ni uşaqlar təşkil edir.

İTS-nın tətbiq olunduğu tibb müəssisələri üzrə tibbi xidmətlərdən faydalanan vətəndaşların sayı




İcbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisələri üzrə **2021-ci il** ərzində **25%-i (4 053 636)** uşaq olmaqla (0-17 yaş) **4 053 636** vətəndaş tibbi xidmətlərdən faydalanmışdır.

2021-ci ildə 2020-ci il ilə müqayisədə icbari tibbi sığortanın tətbiqi ilə tibb müəssisələrində icra olunan cərrahi əməliyyatların sayında **10% artım** müşahidə olunmuşdur.

İcbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisələri üzrə **2022-ci il** ərzində **33%-i (1 503 812)** uşaq olmaqla (0-17 yaş) **4 557 008** vətəndaş tibbi xidmətlərdən faydalanmışdır. 2021-ci il ilə müqayisədə bu göstərici **12% artmışdır.**

2022-ci ildə 2021-ci il ilə müqayisədə icbari tibbi sığortanın tətbiqi ilə tibb müəssisələrində icra olunan cərrahi əməliyyatların sayında **41% artım** müşahidə olunmuşdur.

İcbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisələri üzrə **2023-cü il** ərzində **33%-i (1 664 080)** uşaq olmaqla (0-17 yaş) **5 011 538** vətəndaş tibbi xidmətlərdən faydalanmışdır. 2022-ci il ilə müqayisədə bu göstərici **10% artmışdır.**

2023-cü ildə 2022-ci il ilə müqayisədə icbari tibbi sığortanın tətbiqi ilə tibb müəssisələrində icra olunan cərrahi əməliyyatların sayında **10% artım** müşahidə olunmuşdur.

İcbari tibbi sığortanın tətbiq olunduğu tibb müəssisələri üzrə **2024-cü il** ərzində **33%-i (1 723 343)** uşaq olmaqla (0-17 yaş) **5 236 391** vətəndaş tibbi xidmətlərdən faydalanmışdır. 2023-cü il ilə müqayisədə bu göstərici **5% artmışdır.**

2024-cü ildə 2023-cü il ilə müqayisədə icbari tibbi sığortanın tətbiqi ilə tibb müəssisələrində icra olunan cərrahi əməliyyatların sayında **7% artım** müşahidə olunmuşdur.

Mənbə: İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

# Səhiyyə sektorunda islahatlar

- Azərbaycanda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
- Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 may tarixli 62 nömrəli Fərmanı
- Azərbaycanda "Vahid Sağlamlıq" konsepsiyası tətbiq edilməklə zoonoz xəstəliklərin qarşısının alınması və nəzarətin gücləndirilməsinə dair 2025-2030-cu illər üzrə Milli Strategiya" layihəsi hazırlanması
- "2024-2028-ci illər üçün rəqəmsal səhiyyə Milli Strategiyası"nda rəqəmsal dəyişikliklərə mövcud hazırlıq dərəcəsi və sonrakı illərdə onun əhəmiyyətli artımı ilə əlaqəli rəqəmsal səhiyyə modelinin tətbiqinin qərara alınması
- "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"indən "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" adlanan 3-cü Milli Prioritetin uğurla reallaşdırılması üçün nail olunmalı məqsədlərdən biri vətəndaşların uzunömürlülüyü və sağlam həyat tərzi təmin edilməsidir. Bu istiqamətdə işçi qrupu yaradılması
- Nazirlər Kabinetinin 2023-cü il 14 aprel tarixli sərəncamına əsasən, Səhiyyə Nazirliyi 2024-cü il may ayının 1-dən etibarən ölkədə səhiyyə sahəsində rəqəmsallaşdırma çərçivəsində önəmli addımlardan olan Elektron Resept platforması istifadəyə verilməsi
- Milli Onkologiya Mərkəzinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 11 iyul 2025 tarixli Sərəncamı
- Dünya Bankının dəstəyi ilə həyata keçirilən 'E-Səhiyyə Strategiyası və İddiaların İdarə Edilməsi' layihəsi
- Azərbaycan və Belarusun səhiyyə nazirlikləri arasında 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı

# Ölkə xülasəsi

Son 25 ildə Azərbaycanın demoqrafik göstəricilərində davamlı artım müşahidə olunub: əhali orta illik 1% artaraq 2025-ci ildə 10.22 milyon nəfərə çatıb, 2050-ci ilə kimi isə əlavə 9.8% artım gözlənilir. Doğulanda gözlənilən ömür uzunluğu 2000-ci illə müqayisədə 7% yüksələrək qadınlarda 79, kişilərdə 74 yaşa çatıb.

Səhiyyə maliyyələşməsi davamlı artır: 2025-ci ilin sonuna dövlət büdcəsində səhiyyə xərcləri 7.1% artaraq 1 999.4 milyon manata çatacaq.

İcbari tibbi sığortanın tətbiqi, rəqəmsal səhiyyə modelinə keçid və elektron resept sistemi sektorda modernləşməni sürətləndirib. İcbari tibbi sığorta tibbi xidmətlərin əlçatanlığını artıraraq vətəndaşların, xüsusilə uşaqların (0–17 yaş) tibbi xidmətlərdən istifadəsini yüksəldir.

Səhiyyə infrastrukturunda bəzi göstəricilər azalsa da (xəstəxanalar və yataqların sayı son 25 ildə geriləyib), həkimlərin ümumi sayı artıb və terapevtlər ən böyük ixtisas qrupunu təşkil edir. Xəstə əhalinin sayı uzun müddətli trendlər üzrə artsa da, ana və uşaq ölümü, vərəm və psixi xəstəliklər üzrə xəstələnmə göstəricilərində azalma müşahidə olunur. Ölüm səbəblərinin 56.5%-i qan dövranı sistemi xəstəlikləridir.

İqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin 4%-i səhiyyə və sosial xidmətlərin payına düşür. 2024-cü ildə məşğul əhalinin sayı 2011-ci illə müqayisədə 15.2% artıb, muzdla işləyənlərin orta aylıq əməkhaqqı dövlət sektorunda üstünlük təşkil edir və 1 saata düşən əmək xərcləri 2016-cı il ilə müqayisədə 4 dəfə artıb.

Son illər səhiyyə sektorunda vacib islahatlar həyata keçirilib: “Vahid Sağlamlıq” konsepsiyası, 2024–2028 rəqəmsal səhiyyə strategiyası, Elektron Resept sistemi, Səhiyyə Transformasiya Mərkəzinin yaradılması və beynəlxalq əməkdaşlıq proqramları sektorda keyfiyyətin, şəffaflığın və əlçatanlığın artırılmasına yönəlib.

# Məlumatlandırma

Bu sənədin mülkiyyət hüquqları “ABB” ASC-yə aiddir və ümumi məlumat məqsədi ilə daxili araşdırma çərçivəsində hazırlanmışdır. Buradakı məlumatlar investisiya məsləhəti, hüquqi məsləhətlər və ya digər növ peşəkar məsləhət kimi qiymətləndirilməməlidir. Bu sənəd heç bir müqavilənin və ya əməliyyatın əsası olmayacaq və ya təqdim olunan məlumatla əlaqəli heç bir addımın tövsiyə edilməsi kimi dəyərləndirilməyəcək.

Bu sənəd heç bir bildiriş olmadan yoxlama, tamamlama və dəyişikliklərə məruz qala bilər və ABB bu sənəddə əhatə olunan heç bir məlumatın yenilənməsinə görə məsuliyyət daşımır. Burada təqdim olunan fikirlər, proqnozlar və qiymətlər, üçüncü tərəf mənbələrdən əldə edilmiş məlumata əsaslanır və dəyişikliklərə məruz qalaraq bildirişsiz dəyişə bilər. Üçüncü tərəf nəşrləri, tədqiqatlar və müstəqil araşdırmalar, məlumatlarının
güvənli mənbələrdən əldə edildiyini bildirir, lakin dəqiqlik və ya tamamlıq təmin edilmir. Beləliklə, bu sənəddə yerləşdirilmiş məlumatlara heç bir qərarverici əhəmiyyət verilməməlidir.

Bu sənədə yerləşdirilmiş məlumatların dəqiqliyinə əmin olmaq üçün bütün səylər göstərilsə də, ABB, direktorları, əməkdaşları, filialları, müşavirləri və agentləri təqdimat haqqında heç bir doğruluq zəmanəti vermir.

Bu məlumatlara əminlik və istifadəyə dair cavabdehlik bilavasitə sənədin istifadəçisinə və ya oxucuya aiddir. Biz bu sənədin istifadəsi ilə əlaqədar, məlumat itkisinə və ya zərərinə, yaxud gəlirlərin itirilməsinə görə heç bir məsuliyyət qəbul etmirik.

Bu sənəd gələcəyə dair proqnozlara əsaslanan ifadələr təşkil edə bilər. Belə ifadələr bəzi təxminlərə və gözləntilərə əsaslansa da, faktiki nəticələr, performans və nailiyyətlər ifadə olunanlardan fərqlilik təşkil edə bilər. Biz hər hansı bir baxışı ictimai olaraq yeniləməyə və dəyişməyə əmin olmağa dair heç bir öhdəlik qəbul etmirik. Üçüncü tərəf saytlarına verilən bağlantılar və istinadlar təkliflərin təsdiqini və ya içindəkilərin fikirlərinə düzgünlüyünü təmin etmir. Təmin olunan məlumatlara əsaslanaraq investisiya qərarları və ya tədbirlər görmədən əvvəl mütəxəssis məsləhətçi ilə məlumat ətrafında ciddi şəkildə nəzəri olmağı tövsiyə edirik. ABB, tədqiqatı ilə bağlılığı olan şirkətlərlə birgə əməkdaşlıq edə bilər. Nəticədə, bu sənəddəki məlumatların obyektivliyinə təsir edə biləcək potensial bir maraqlı tərəfin fərqində olmalısınız.

Hər hansı bir məqsədlə bu sənədin bütün və ya hər hansı bir hissəsinin qeyri-qanuni kopyalanması, çap olunması, dərc edilməsi və ya yenidən tərcümə olunması məhdudlaşdırılmışdır.

Əlaqədar şəxs:

Səbuhi Həmidli
Risklərin idarə edilməsi departamenti,
Bazar risklərinin idarə edilməsi şöbəsi

Emilya Qasımova
Risklərin idarə edilməsi departamenti,
Bazar risklərinin idarə edilməsi şöbəsi

Azər Həzizadə,
Risklərin idarə edilməsi departamenti
Bazar risklərinin idarə edilməsi şöbəsi

Nizami küç. 67,
AZ1005 Bakı, Azərbayan

+99412 493 00 91 (dax.: 1416)
abb-research@abb-bank.az

+99412 493 00 91 (dax.: 1447)
abb-research@abb-bank.az

+99412 493 00 91 (dax.: 1441)
abb-research@abb-bank.az

# Diqqətiniz üçün təşəkkürlər!

Dekabr 2025